## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. “Azərbaycan Kapital Bazarları Assosiasiyası – AKBA” İctimai Birliyi (bundan sonra - Birlik), AR-nın Mülki Məcəlləsinə, “Qeyri-hökumət təşkilatları (ictimai birlik və fondlar) haqqında” Azərbaycan Respublikasının Qanununa və digər qüvvədə olan normativ hüquqi aktlarına əsasən, qeyri-hökumət təşkilatı hüquqi statusuna malik əsas məqsədi mənfəət əldə edilməsinə yönəldilməyən təşkilatdır.

1.2. Birlik, öz fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyası, “Qeyri-hökumət təşkilatları (ictimai birlik və ya fondlar) haqqında” Azərbaycan Respublikasının Qanunu və digər normativ-hüquqi aktlar və bu nizamnamə əsasında həyata keçirir.

1.3. Birlik öz fəaliyyətini bərabərlik, qanunilik, aşkarlıq, şəffaflıq, könüllülük və özünüidarəetmə prinsipləri əsasında qurur.

1.4. Birlik 10.08.2007-ci il tarixdə 1107-Q19-2430 nömrə ilə Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmış “Azərbaycan Fond Bazarı İştirakçılarının Assosiasiyası” İB hüquqi varisidir.

1.5. Birliyin hüquqi ünvanı: Bakı şəhəri, Nəsimi rayonu, Nizami küçəsi 111.

1.6. Birliyin fəaliyyəti vaxtla məhdudlaşmır.

1.7. Birliyin üzvləri Birliyin öhdəlikləri üzrə, Birlik isə üzvlərinin öhdəlikləri üzrə heç bir cavabdehlik daşımır.

## 2. BİRLİYİN MƏQSƏDİ

Birliyin əsas məqsədi kapital bazarı iştirakçılarının (kapital bazarında lisenziyalaşdırılan şəxslər, emitentlər, investorlar və bu sahə ilə əlaqəli olan digər şəxslər) səmərəli peşəkar fəaliyyəti üçün şəraitin yaradılmasından ibarətdir.

## 3. BİRLİYİN VƏZİFƏLƏRİ

3.1. Birlik məqsədlərinə çatmaq üçün aşağıdakı vəzifələri həyata keçirir:

- 3.1.1. kapital bazarı iştirakçılarının maraqlarının qorunmasına və təşviqinə kömək etmək;
- 3.1.2. kapital bazarının inkişafına dəstək vermək;
- 3.1.3. kapital bazarı sahəsində inkişaf etmiş ölkələrin təcrübəsini öyrənmək və onun Azərbaycanda tətbiqi imkanlarını araşdırımaq;
- 3.1.4. kapital bazarı sahəsində maarifləndirmə işləri aparmaq;
- 3.1.5. kapital bazarı iştirakçılarının peşəkarlıq səviyyələrinin artırılmasına kömək etmək;
- 3.1.6. Birliyin üzvlərinin fəaliyyətinin etik normalarını müəyyən etmək, onlara riayət edilməsini təmin etmək, o cümlədən üzvlər arasında haqsız rəqabətə yol verməmək;
- 3.1.7. kapital bazarında lisenziyalaşdırılan şəxslərin əməkdaşları üçün Mərkəzi Bankın ixtisas tələblərinə uyğun tədris proqramının hazırlanmasına dəstək olmaq;
- 3.1.8. kapital bazarı haqqında qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə təklifləri aidiyyəti orqanlara təqdim etmək;
- 3.1.9. kapital bazarında lisenziyalaşdırılan şəxslərin qiymətli kağızlar bazarındakı reytinqini müəyyən etmək;
- 3.1.10. kapital bazarı sahəsində elmi araşdırmalar aparmaq;
- 3.1.11. kapital bazarına dair məsləhətlər vermək;

3.1.12. Azərbaycan Respublikasının aidiyyəti dövlət və bələdiyyə orqanları ilə əməkdaşlıq etmək.

3.2. Bu Nizamnamə ilə müəyyən olunmuş vəzifələri həyata keçirmək üçün Birlik:

3.2.1. müxtəlif kurslar və seminarlar, dəyirmi masa və görüşlər, sərgilər təşkil edir;

3.2.2. konfranslar, xeyriyyə marafonları, digər mədəni-kütləvi tədbirlər keçirir;

3.2.3. müxtəlif layihələr və proqramlar həyata keçirir;

3.2.4. məqsədləri və fəaliyyəti barədə məlumatı sərbəst yayır, qanunvericiliyə müvafiq qaydada mətbu nəşrlər təsis edir.

## 4. BİRLİYİN SAHİBKARLIQ FƏALİYYƏTİ

Birlik bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə çatmaq üçün Azərbaycan Respublikasının qanunvericiliyinə və bu Nizamnamənin məqsədlərinə uyğun olaraq sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər. Sahibkarlıq fəaliyyətindən əldə edilən gəlir Birliyin üzvləri arasında bölünə bilməz və yalnız müəyyən olunan məqsədlərə çatmaq üçün istifadə oluna bilər.

## 5. BİRLİYİN HÜQUQİ STATUSU

5.1. Birlik Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı andan hüquqi şəxs statusunu əldə edir.

5.2. Birlik öz adından müqavilələr bağlaya, əqli mülkiyyət hüquqları da daxil olmaqla (lakin bunlarla məhdudlaşmamaqla) bütün qanuni obyektlər üzərində mülkiyyət hüququ əldə edə, vəzifələr daşıya bilər, məhkəmədə və digər mübahisə həll edən qurumlarda iddiaçı və cavabdeh qismində çıxış edə, Azərbaycan Respublikasında yaradılan ictimai birliklərin malik olduğu bütün hüquqlara malik ola və öhdəlikləri daşıya bilər.

5.3. Birliyin müstəqil balansı, üzərində adı yazılmış möhürü, ştampı, Azərbaycan Respublikasının banklarında hesablaşma hesabı və digər rekvizitləri vardır.

## 6. BİRLİYİN HÜQUQLARI

6.1. Birlik aşağıdakı hüquqlara malikdir:

6.1.1. öz adından əqdlər bağlamaq, əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh kimi çıxış etmək;

6.1.2. fəaliyyəti barədə məlumatı sərbəst yaymaq;

6.1.3. Azərbaycan Respublikasının ərazisində və xaricdə fılial və nümayəndəliklərini, o cümlədən məqsədlərini həyata keçirmək üçün hüquqi şəxslər təsis etmək;

6.1.4. Mülki Məcəllə və “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, Fondların və digər hüquqi şəxslərin təsis edilməsində iştirak etmək;

6.1.5. müstəqil olaraq öz daxili strukturunu, onun formasını və fəaliyyət metodunu, maliyyə planını və ştatını müəyyən etmək;

6.1.6. banklarda, depozitarda və investisiya şirkətlərində hesablar açmaq və hesablaşmalar aparmaq, hesablar üzərində sərəncam vermək;

6.1.7. müstəqil balansa, möhürə, ştampa, loqotipə və digər rekvizitlərə malik olmaq;

6.1.8. əqdlər bağlamaq;

6.1.9. bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə çatmaq üçün büdcə təşkilatlarından, o cümlədən qanunla müəyyən olunmuş digər mənbələrdən vəsaitlər qəbul etmək;
6.1.10. qanunvericiliklə qadağan edilməyən və nizamnamə məqsədlərinə uyğun olan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq;
6.1.11. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər hüquqlardan istifadə etmək.

## 7. BİRLİYİN ƏMLAKI VƏ MALİYYƏ FƏALİYYƏTİ

7.1 Birliyin mülkiyyətində binalar, qurğular, mənzillər, avadanlıqlar, inventarlar, pul vəsaitləri, səhmlər, digər qiymətli kağızlar və bu Nizamnamə ilə nəzərdə tutulmuş fəaliyyətin maddi təminatı üçün qanunvericiliklə qadağan olunmamış növlərdə əmlak, habelə qeyri-maddi əmlak elementləri ola bilər.
7.2 Birlik öz öhdəliklərinə görə əmlakı ilə cavabdehdir. Bu əmlak yalnız Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq özgəninkiləşdirilə bilər.
7.3 Birliyin əmlakının pul və digər şəkildə formalaşdırılması mənbələri aşağıdakılardır:
7.3.1. Birlik üzvlərinin ödədiyi üzvlük haqları;
7.3.2. idarə, müəssisə, yerli təşkilatların və vətəndaşların könüllü verdikləri əmlak haqları və ianələri;
7.3.3. səhmlər, istiqrazlar, başqa qiymətli kağız və əmanətlərdən alınan dividendlər, gəlirlər;
7.3.4. öz əmlakından istifadə və onun satılması nəticəsində əldə edilən gəlirlər;
7.3.5. qrantlar;
7.3.6. sərgilərdən, konsertlərdən və digər tədbirlərdən əldə olunan gəlirlər;
7.3.7. təsis etdiyi müəssisələrin fəaliyyəti nəticəsində əldə olunan gəlirlər;
7.3.8. qanunvericilikdə qadağan olunmamış digər mədaxillər.
7.4 Birliyin üzvləri onun mülkiyyətinə daxil olan ayrı-ayrı obyektlər üzərində xüsusi hüquqlara malik deyil.
7.5 Birlik Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada öz fəaliyyətinin məqsədlərinə və əmlakın təyinatına müvafiq olaraq öz əmlakı üzərində sahiblik, istifadə və sərəncam hüququna malikdir.
7.6 Birliyin hesabına daxil olmuş məqsədli vəsait başqa istiqamətlərdə xərclənə bilməz.
7.7 Birlik siyasi partiyalara maliyyə və başqa maddi yardım göstərə bilməz.
7.8 Birlik qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə, statistik və sair hesabatlar tərtib edir və dövlət orqanlarına təqdim edir.

## 8. BİRLİYİN İŞTİRAKÇILARI

8.1. Birliyin iştirakılarına Birliyin üzvləri və köməkçilər daxildir.
8.2. Birliyin üzvləri – hüquqi şəxslər (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla).
8.3. Birliyin köməkçiləri - bu Nizamnaməyə müvafiq olaraq Birliyin fəaliyyətində iştirak etməklə, öz münasibətlərini Birlik ilə təşkilatı cəhətdən rəsmiləşdirmədən ona müxtəlif kömək və ya xidmətlər göstərməklə qeyri-hökumət təşkilatını dəstəkləyən 18 yaşına çatmış tam fəaliyyət qabiliyyətli fiziki şəxslər və hüquqi şəxslər (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla) aiddir. Köməkçilərin mövcudluğu və onların hüquqi statusu bu Nizamnamə və “Könüllü fəaliyyət haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

8.4. Birliyə yeni hüquqi şəxs qatıldıqda həmin hüquqi şəxsə Birliyin mülahizəsinə əsasən Üzv yaxud Köməkçi kimi iştirakla bağlı seçim imkanı verilir.
8.5. Birliyə iştirakçıların qəbulu Birliyin Direktorlar Şurası tərəfindən aparılır.
8.6. Birliyə daxil olmaq üçün Birliyə yazılı şəkildə müraciət edilir. Müraciətə bir ay müddətində baxılır. Səsvermə nəticəsində Direktorlar Şurasının üzvlərinin yarısından çoxu bu məsələyə müsbət münasibətlərini bildirdikdə və Birlikdə iştirak üçün nəzərdə tutulmuş üzvlük haqqını tam ödədikdən sonra ərizəçi Birliyin iştirakçısı qəbul olunmuş hesab edilir. İştirakçılığa dair digər şərtlər iştirakçılıq qaydaları ilə müəyyən olunur.
8.7. Üzvlər bərabər hüquqlara malikdirlər. Birliyin köməkçilərinin heç bir məsələ ilə əlaqədar səsvermə hüququ yoxdur. Üzvlərin hüquq və vəzifələri qanunvericiliklə, bu Nizamnamə ilə, daxili qaydalarla, yaxud onlarla bağlanmış müqavilə ilə müəyyən edilir.
8.8. Birliyin üzvləri aşağıdakı hüquqlara malikdirlər:
- 8.8.1. Bu Nizamnamədə və digər sənədlərdə nəzərdə tutulmuş qaydada təşkilatın idarəçiliyində iştirak etmək;
- 8.8.2. Ümumi Yığıncağın gündəliyi ilə əvvəlcədən tanış olmaq, iclasda iştirak etmək və səsvermə hüququndan istifadə etmək;
- 8.8.3. Birliyin hər hansı seçkili, o cümlədən rəhbər orqanına seçmək və ya seçilmək;
- 8.8.4. Birliyin fəaliyyətində, həmçinin nəzərdə tutulmuş müəyyən şərtlər çərçivəsində təşkil etdiyi tədbirlərdə iştirak etmək;
- 8.8.5. Birliyin rəhbər orqanlarının fəaliyyəti barədə məlumat almaq, fəaliyyətinə nəzarət etmək;
- 8.8.6. Birliyin istənilən idarəetmə orqanına etirazını bildirmək, şikayət etmək, Birliyin orqanlarının qərarlarından inzibati qaydada və məhkəməyə şikayət vermək;
- 8.8.7. öz mənafelərinin müdafiəsinə kömək göstərilməsi üçün Birliyə müraciət etmək;
- 8.8.8. onun hüquq və vəzifələri ilə bağlı hər hansı məsələnin müzakirəsində şəxsən iştirak etmək, Birliyin müvafiq orqanlarına etirazını bildirmək və şikayət etmək.

8.9. Birliyin üzvləri və köməkçiləri aşağıdakı vəzifələri daşıyırlar:
- 8.9.1. Birliyin nizamnaməsinə əməl etmək;
- 8.9.2. Birliyin qəbul etdiyi qaydalara, normativ və təşkilati-sərəncamverici aktlara riayət etmək;
- 8.9.3. müqavilə əsasında münasibət qurduğu şəxslərin Birliyin qəbul etdiyi normativ və təşkilati-sərəncamverici aktlarının şərtlərinə əməl etmələrinə təminat vermək;
- 8.9.4. Birliyin seçkili orqanlarının qərarlarını yerinə yetirmək;
- 8.9.5. nizamnamə tələblərinə riayət etmək;
- 8.9.6. Birliyin üzvlük haqqlarını vaxtında ödəmək.

8.10. Birliyin köməkçiləri səsvermə hüququ və Birliyin daxili qaydalarında öz əksini tapmış müəyyən hallar istisna olmaqla, Birliyin üzvləri ilə bərabər hüquqlara malikdir.
8.11. Birliyin iştirakçılarının üzvlüyünə aşağıdakı hallarda xitam verilir:
- 8.11.1. könüllü olaraq Birliyin üzvlüyündən çıxdıqda;
- 8.11.2. Birliyin üzvlüyündən çıxarıldıqda;
- 8.11.3. hüquqi şəxs kimi ləğv edildikdə;
- 8.11.4. fiziki şəxs vəfat etdikdə;
- 8.11.5. Birliyin əmlakına ziyan vuran və ya adına, işgüzar nüfuzuna xələl gətirən hərəkətlərə yol verdikdə;
- 8.11.6. Birliyin üzvlük qaydalarının şərtlərini pozduqda;
- 8.11.7. Birliyin nizamnaməsini, əsasnamələrini, daxili qaydalarını və qərarlarını kobud şəkildə (ardıcıl olaraq 2 və ya daha çox sayda) pozduqda.

8.12. Üzvlüyə xitam verilmə Direktorlar Şurası qərarı ilə həyata keçirilir. Üzvün həmin qərarından Birliyin ali idarəetmə orqanına və məhkəməyə şikayət etmək hüququ vardır.
8.13. Üzvlüyə xitam verilməsi, Üzvü Birlik qarşısında icra edilməmiş maliyyə öhdəliklərindən azad etmir.

## 9. İDARƏETMƏ

9.1. Birliyin idarəetmə orqanları aşağıdakılardır:
 9.1.1. Ümumi Yığıncaq;
 9.1.2. Direktorlar Şurası;
 9.1.3. Nəzarət Təftiş Komissiyası;
 9.1.4. İcraçı direktor.

## 10. ÜMUMİ YIĞINCAQ

10.1. Birliyin ali idarəetmə orqanı ildə bir dəfədən az olmayaraq çağırılan Ümumi Yığıncaqdır.
10.2. Ümumi Yığıncağın səlahiyyətlərinə aşağıdakılar aiddir:
 10.2.1. Birliyin Nizamnaməsinin qəbul edilməsi və ona dəyişikliklər edilməsi;
 10.2.2. Birliyin əmlakının formalaşması və istifadə prinsiplərinin müəyyən edilməsi;
 10.2.3. Birliyin Direktorlar Şurasının və Nəzarət Təftiş Komissiyasının üzvlərinin seçilməsi və onların səlahiyyətlərinin vaxtından əvvəl dayandırılması;
 10.2.4. Direktorlar Şurası və Nəzarət Təftiş Komissiyasının üzvlərinin mükafatlandırılmasına dair qərarın qəbul edilməsi;
 10.2.5. daxili qaydaların və siyasətlərin təsdiq edilməsi;
 10.2.6. Birliyin yenidən təşkili və ləğv edilməsi;
 10.2.7. Birliyin Direktorlar Şurasının hesabatının dinlənilməsi.
 10.2.8. qanunvericiliklə və bu nizamnamə ilə müəyyən edilmiş digər səlahiyyətlərin həyata keçirilməsi.
10.3. Ümumi Yığıncaq növbəti və növbədən kənar ola bilər.
10.4. Növbəti Ümumi Yığıncaq ildə bir dəfədən az olmayaraq çağrılmalıdır.
10.5. Ümumi Yığıncaq icra orqanının, üzvlərin üçdə bir hissəsinin təşəbbüsü ilə çağırılır.
10.6. İllik Ümumi Yığıncağının çağrılmasına ən geci 20 (iyirmi) təqvim günü qalmış Üzvlərə illik Ümumi Yığıncağın keçirilməsi barədə kağız daşıyıcıda və ya elektron qaydada icra orqanı tərəfindən bildiriş göndərilir.
10.7. Bildirişdə ən azından Ümumi Yığıncağın keçiriləcəyi tarix, saat, ünvan və müzakirə olunacaq məsələlər əksini tapır.
10.8. İllik Ümumi Yığıncağın keçirilməsindən ən geci 10 (on) təqvim günü əvvəl hər bir Üzv illik Ümumi Yığıncağın gündəliyinə dair öz təkliflərini vermək hüququ vardır. Təklif yazılı formada verilir (elektron və ya kağız daşıyıcıda), onun məzmunu və gündəliyə daxil olması əsaslandırılır. Əgər verilmiş təklif qəbul edilərsə, gündəliyə edilmiş dəyişiklik barədə məlumat icra orqanı tərəfindən elektron qaydada bütün Üzvlərə göndərilir.
10.9. Birliyin növbədənkənar Ümumi Yığıncağı Direktorlar Şurasının, Nəzarət Təftiş Komissiyasının və ya ən azı Üzvlərin üçdə birinin təşəbbüsü ilə çağırılır.
10.10. Növbədənkənar Ümumi Yığıncağının çağırılması tələbində gündəliyə təklif olunan məsələlər göstərilməlidir. Həmin məsələlər növbədənkənar Ümumi Yığıncağın gündəliyinə mütləq salınmalıdır.

10.11. Növbədənkənar Ümumi Yığıncağının çağırılması haqqında tələbin (təşəbbüsün) daxil olduğu gündən etibarən icraçı direktor 5 (beş) iş günü müddətində növbədənkənar Ümumi Yığıncağının çağırılması barədə bildirişləri Üzvlərə göndərir və bildiriş göndərildiyi tarixdən 15 (on beş) təqvim günündən gec olmayaraq növbədənkənar Ümumi Yığıncağının keçirilməsini təmin edir.

10.12. Üzvlərin yarısından çoxu iştirak etdikdə Ümumi Yığıncaq səlahiyyətli hesab edilir. Yetərsay olmadıqda Ümumi Yığıncaq yenidən çağırılır. Növbəti dəfə yetərsay olmadıqda, gündəlikdə əks etdirilmiş məsələlər üzrə Ümumi Yığıncağın keçirilməsi ləğv edilir. Ümumi Yığıncaq yenidən çağrıldıqda, Ümumi Yığıncağın gündəliyinə dəyişiklik edilməməlidir.

10.13. Birliyin yenidən təşkili, ləğvi, nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsi haqqında qərarlar Ümumi Yığıncağında iştirak edən üzvlərin ən azı üçdə iki səs çoxluğu ilə qəbul olunur. Digər məsələlər üzrə qərarlar, Ümumi Yığıncaqda iştirak edən Üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir.

10.14. Hüquqi şəxs olan Birliyin üzvü Ümumi Yığıncaqda həmin hüquqi şəxsin icra orqanının rəhbəri vasitəsi ilə etibarnaməsiz təmsil olunur. Hüquqi şəxs olan Birliyin üzvü adından digər şəxs iştirak etdikdə, həmin şəxs qanunvericiliklə müəyyən edilmiş qaydada tərtib edilmiş etibarnamə təqdim etməlidir. Fiziki şəxs olan Birliyin üzvü Ümumi Yığıncaqda birbaşa özü və ya qanunvericiliklə müəyyən edilmiş qaydada tərtib edilmiş etibarnamə əsasında onun nümayəndəsi vasitəsi ilə iştirak edə bilər.

10.15. Ümumi Yığıncaq bitdikdən sonra üç iş günündən gec olmayaraq Ümumi Yığıncağının protokolu tərtib olunur. Protokol Ümumi Yığıncağa sədrlik edən şəxs və katib tərəfindən imzalanır və möhürlənir. Ümumu Yığıncağının protokolu qanunvericilikdə müəyyən edilmiş məlumatları əks etdirməlidir. Üzvün tələbi ilə protokolun surəti ona təqdim edilməlidir.

10.16. Ümumi Yığıncağının səlahiyyətlərinə aid edilmiş məsələlər Üzvlərin yazılı qaydada səslərinin yığılması və ya iclasın video konfrans formatı qaydasında keçirilməsi yolu ilə həll edilə bilər.

10.17. Səsvermə yazılı qaydada keçirildikdə, icra orqanı bütün Üzvlərə səsverməyə təqdim olunan məsələni elektron məktub formasında göndərir və Üzvlərin səslərinin hesablanmasının tarixi müəyyən edir. Müzakirəyə çıxarılan məsələyə dair bütün sənədlər və məlumatlar elektron məktuba əlavə olunmalıdır. Səslərin hesablanmasının son tarixi, müzakirə olunan məsələ üzvlərə göndərildiyi tarixdən başlayaraq 10 (on) təqvim günü müəyyən olunur. Üzv qərarlarını elektron məktub formasında Birliyin idarəetmə orqanına göndərməlidir. Səsvermənin nəticələri üzrə icra orqanı Ümumi Yığıncağın protokolunu tərtib edir. Həmin protokola Üzvlərdən daxil olmuş qərarlar əlavə olunur və protokol Ümumi Yığıncağın sədri və katibi tərəfindən təsdiq olunur. Başqa hal nəzərdə tutulmamışdırsa, qərar(lar) protokol təsdiq edildiyi tarixdə qüvvəyə minir.

10.18. Ümumi Yığıncaq video konfrans formatı qaydasında keçirildikdə icra orqanı iclasın video konfrans formatı qaydasında keçiriləcəyi barədə bildirişi və iclasa qoşulmaq haqqında təlimatı Nizamnamə ilə müəyyən olunmuş müddət ərzində Üzvlərə göndərir. İclas bitdikdən sonra Ümumi Yığıncağın protokolu tərtib edilir və Ümumi Yığıncağın sədri və katibi tərəfindən təsdiq olunur.

10.19. Səsvermənin yazılı qaydada keçirilməsi halı istisna olmaqla, Ümumi Yığıncağın sədri və katibi Üzvlər tərəfindən Ümumi Yığıncaqda seçilir.

## 11. DİREKTORLAR ŞURASI

11.1. Direktorlar Şurası Birliyin fəaliyyətinə cari rəhbərliyi və nəzarəti həyata keçirən kollegial icra orqanıdır.

11.2. Direktorlar Şurasının üzvləri, Ümumi Yığıncaq tərəfindən, tək sayda olmaqla, ən azı 3 (üç) nəfərdən ibarət olaraq 3 (üç) il müddətinə ardıcıl olaraq 2 (iki) dəfədən çox olmamaqla seçilir.

11.3. 11.2-ci maddədə qeyd edilmiş şərtlərə əməl etmək şərti ilə Direktorlar Şurasının üzvləri 2 (iki) dəfədən artıq seçilmək hüququna malikdirlər.

11.4. Direktorlar şurası 3 (üç) nəfərdən ibarət olduqda ən azı 2 (iki) üzv, 5 (beş) və ya 7 (yeddi) üzv olduqda isə ən azı 3 (üç) üzv investisiya şirkəti fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin nümayəndələri arasından, üzvlərin sayı 5 (beş) və ya 7 (yeddi) üzv olduqda 1 (bir) üzv birja faəliyyəti, 1 (bir) üzv isə depozitar faəliyyəti ilə məşğul olan hüquqi şəxsin nümayəndəsi və əlavə 2 (iki) şəxs müstəqil (kapital bazarlarında heç bir lisenziya tələb edən fəaliyyət ilə məşğul olmayan və ya belə fəaliyyətlə məşğul olan hüquqi şəxsdə heç bir şəkildə təmsil olunmayan) şəxslərdən seçilir.

11.5. Direktorlar Şurasının üzvləri, Ümumi Yığıncaqda səsvermə hüququna malik olan Üzvlərin sadə səs çoxluğu ilə seçilir.

11.6. Direktorlar Şurasının üzvü fiziki şəxs olmalıdır. Direktorlar Şurasının üzvlüyünə Birliyin icra orqanının və Nəzarət Təftiş Komissiyasının üzvləri istisna olmaqla, Üzvün nümayəndəsi seçilə bilər.

11.7. Direktorlar Şurasının üzvlərinin səlahiyyətlərinə Ümumi Yığıncağın qərarı əsasında vaxtından əvvəl xitam verilə bilər.

11.8. Direktorlar Şurasının sədri, Ümumi Yığıncaq tərəfindən Direktorlar Şurasının üzvləri arasından seçilir.

11.9. Direktorlar Şurasının sədri Direktorlar Şurasına rəhbərlik edir, onun fəaliyyətini təşkil edir və iclaslarını çağırır, iclaslarda protokolun aparılmasını təşkil edir və səsvermələrdə səs bərabərliyi olduğu təqdirdə həlledici səs hüququna malik olur.

11.10. Direktorlar Şurasının üzvlərindən biri üzvlük statusunu itirdiyi halda, yeni seçilən üzv əvvəlki üzvün seçildiyi müddətədək fəaliyyət göstərir.

11.11. Direktorlar Şurasının səlahiyyətlərinə aşağıdakı məsələlər aiddir:

- 11.11.1. Ümumi Yığıncağın gündəliyinin təsdiq edilməsi;
- 11.11.2. Birliyin illik büdcəsinin qəbul edilməsi;
- 11.11.3. Üzvlük haqqının miqdarının müəyyən edilməsi;
- 11.11.4. Birliyin nümayəndəliyinin yaradılması, rəhbərinin təyin edilməsi və onların fəaliyyətinə xitam verilməsi;
- 11.11.5. törəmə təsərrüfat cəmiyyətlərinin yaradılması və ləğv edilməsi, o cümlədən digər hüquqi şəxslərin payında iştirak edilməsi və ya iştirakın dayandırılması;
- 11.11.6. Birliyin təşkilati strukturunun təsdiq edilməsi;
- 11.11.7. Birliyin əsas inkişaf və fəaliyyət istiqamətlərinin təsdiq olunması;
- 11.11.8. Bu Nizamnaməyə əsasən Ümumi Yığıncağa baxılması və ya təsdiq olunması üçün təqdim edilməli məsələlərlə bağlı ilkin rəy verilməsi;
- 11.11.9. Ümumi Yığıncaq tərəfindən qəbul edilmiş qərar və qaydalara əməl olunması üçün tədbirlər görür və bu qərarların icrasını təmin edir;
- 11.11.10. Birliyə aid əmlakın istifadəsinə sərəncam verir və ya belə səlahiyyətləri etibarnamə əsasında icraçı direktora ötürür;
- 11.11.11. Strateji baxışın və iş planlarının hazırlanması;
- 11.11.12. Komitələr və ekspert qruplarının yaradılması, əsasnamələrinin və reqlamentlərin qəbulu və onların ləğv edilməsi,

11.11.13. əgər müqavilə və ya müqavilələrə əsasən Birliyin xərcərinin və ya öhdəliklərinin ümumi məbləği Direktorlar Şurası tərəfindən müəyyən edilmiş həddən çox olarsa, belə müqavilələrin təsdiq edilməsi;

11.11.14. Birliyin aktivlərini girov və ya ipoteka qoymaq, icarəyə vermək və ya hər hansı bir başqa şəkildə yüklü etmək məsələlərinin təsdiq edilməsi;

11.11.15. Mahiyyətinə və ya qanunla nəzərdə tutulduğuna görə qəbul edilməsi və ya təsdiq edilməsi Direktorlar Şurasının səlahiyyət dairəsinə aid olan və Ümumi Yığıncağın müstəsna səlahiyyətinə aid olmayan istənilən qərarların və tədbirlərin qəbul edilməsi və ya təsdiq edilməsi.

11.11.16. Birliyin ştat cədvəlini təsdiq edir və işçilərin əmək haqlarının həcmini müəyyən edir;

11.11.17. Birliyin fəaliyyəti ilə əlaqədar digər zəruri sənədlərin və təkliflərin hazırlanmasını həyata keçirir.

11.11.18. Ümumi Yığıncağın qərarı ilə digər səlahiyyətlərin icrası.

11.12. Direktorlar Şurasının iclasları ən azı ildə dörd dəfə çağrılır.

11.13. İclasın çağrılmasına ən geci 10 (on) təqvim günü qalmış Direktorlar Şurasının üzvlərinə iclasın keçirilməsi barədə kağız daşıyıcıda və ya elektron qaydada icra orqanı tərəfindən bildiriş göndərilir.

11.14. Bildirişdə ən azından iclasın keçiriləcəyi tarix, saat, ünvan və müzakirə olunacaq məsələlər əksini tapır.

11.15. İclasın keçirilməsindən ən geci 5 (beş) təqvim günü əvvəl hər bir Direktorlar Şurasının üzvü gündəliyinə dair öz təkliflərini vermək hüququ vardır. Təklif yazılı formada verilir (elektron və ya kağız daşıyıcıda), onun məzmunu və gündəliyə daxil olması əsaslandırılır. Gündəliyə edilmiş dəyişiklik barədə məlumat icra orqanı tərəfindən elektron qaydada bütün Direktorlar Şurasına göndərilir.

11.16. Direktorlar Şurasının növbədənkənar iclası, ən azı Üzvlərin üçdə birinin, Nəzarət Təftiş Komissiyasının, icra orqanının təşəbbüsü ilə çağırılır.

11.17. Növbədənkənar iclasın çağırılması tələbində gündəliyə təklif olunan məsələlər göstərilməlidir. Həmin məsələlər növbədənkənar iclasın gündəliyinə mütləq salınmalıdır.

11.18. Növbədənkənar iclasın çağırılması haqqında tələbin (təşəbbüsün) daxil olduğu gündən etibarən icra orqanı 3 (üç) iş günü müddətində növbədənkənar iclasın çağırılması barədə bildirişi Direktorlar Şurasına göndərir və bildiriş göndərildiyi tarixdən 7 (yeddi) təqvim gündən gec olmayaraq, növbədənkənar iclasın keçirilməsini təmin etmək.

11.19. Üzvlərin yarısından çoxu iştirak etdikdə iclas səlahiyyətli hesab edilir. Yetərsay olmadıqda iclas yenidən çağırılır. Növbəti dəfə yetərsay olmadıqda, gündəlikdə əks etdirilmiş məsələlər üzrə iclasın keçirilməsi ləğv edilir. İclas yenidən çağrıldıqda, iclasın gündəliyinə dəyişiklik edilməməlidir.

11.20. İclasda qərarlar, iclas iştirakçılarının sadə səs çoxluğu ilə qəbul edilir.

11.21. İclas bitdikdən sonra üç iş günündən gec olmayaraq iclasın protokolu tərtib olunur. Protokol iclasda sədrlik edən şəxs və katib tərəfindən imzalanır və möhürlənir. Direktorlar Şurası üzvünün tələbi ilə protokolun surəti ona təqdim edilməlidir.

11.22. Direktorlar Şurasının səlahiyyətlərinə aid edilmiş məsələlər Direktorlar Şurası üzvlərinin yazılı qaydada səslərinin yığılması və ya iclasın video konfrans formatı qaydasında keçirilməsi yolu ilə həll edilə bilər.

11.23. Səsvermə yazılı qaydada keçirildikdə, icra orqanı Direktorlar Şurasına səsverməyə təqdim olunan məsələni elektron məktub formasında göndərir və səslərinin hesablanmasının tarixi müəyyən edir. Müzakiəyə çıxarılan məsələyə dair bütün sənədlər və məlumatlar elektron məktuba əlavə olunmalıdır. Səslərinin hesablanmasının son tarixi, müzakirə olunan məsələ üzvlərə göndərildiyi tarixdən

başlayaraq 5 (beş) təqvim günü müəyyən olunur. Direktorlar Şurasının üzvü qərarlarını elektron məktub formasında Birliyin idarəetmə orqanına göndərməlidir. Səsvermənin nəticələri üzrə icra orqanı iclasın protokolunu tərtib edir. Həmin protokola daxil olmuş qərarlar əlavə olunur və protokol iclasın sədri və katibi tərəfindən təsdiq olunur. Başqa hal nəzərdə tutulmamışdırsa, qərar(lar) protokol təsdiq edildiyi tarixdə qüvvəyə minir.

11.24. İclas video konfrans formatı qaydasında keçirildikdə icra orqanı iclasın video konfrans formatı qaydasında keçiriləcəyi barədə bildirişi və iclasa qoşulmaq haqqında təlimatı nizamnamə ilə müəyyən olunmuş müddət ərzində Direktorlar Şurasına göndərir. İclas bitdikdən sonra, iclasın protokolu tərtib edilir və iclasın sədri və katibi tərəfindən təsdiq olunur.

11.25. İclasa sədrliyi Direktorlar Şurasının sədri, katibliyi isə Birliyin işçisi edir. Direktorlar Şurasının sədri iclasda iştirak etmədikdə, iclasın sədri iclasda iştirak edən Direktorlar Şurasının üzvləri arasından seçilir.

11.26. Direktorlar Şurası Ümumi Yığıncağın müstəsna səlahiyyətlərinə aid edilməyən bütün səlahiyyətləri həyata keçirir.

## 12. NƏZARƏT TƏFTİŞ KOMİSSİYASI

12.1. Birliyin Nəzarət Təftiş Komissiyası 3 (üç) il müddətinə seçilən, üzvlərinin sayı 3 (üç) nəfər fiziki şəxsdən ibarət olan kollegial orqandır. Nəzarət Təftiş Komissiyasının üzvləri təkrar seçilmək hüququna malikdirlər.

12.2. Birliyin Nəzarət Təftiş Komissiyası Birliyin vəzifəli şəxslərinin və üzvlərinin fəaliyyətinin nizamnaməyə, daxili qaydalarına uyğun olması, habelə Birliyin maliyyə fəaliyyəti üzərində nəzarəti həyata keçirir.

12.3. Nəzarət Təftiş Komissiyasının iclasları ən azı ildə bir dəfə çağrılır.

12.4. İclasın çağrılmasına ən geci 10 (on) təqvim günü qalmış Nəzarət Təftiş Komissiyasının üzvlərinə iclasın keçirilməsi barədə kağız daşıyıcıda və ya elektron qaydada icra orqanı tərəfindən bildiriş göndərilir.

12.5. Bildirişdə ən azından iclasın keçiriləcəyi tarix, saat, ünvan və müzakirə olunacaq məsələlər əksini tapır.

12.6. İclasın keçirilməsindən ən geci 5 (beş) təqvim günü əvvəl hər bir Nəzarət Təftiş Komissiyasının üzvü gündəliyinə dair öz təkliflərini vermək hüququ vardır. Təklif yazılı formada verilir (elektron və ya kağız daşıyıcıda), onun məzmunu və gündəliyə daxil olması əsaslandırılır. Gündəliyə edilmiş dəyişiklik barədə məlumat icra orqanı tərəfindən elektron qaydada bütün Nəzarət Təftiş Komissiyasına göndərilir.

12.7. İclasda qərarlar, iclas iştirakçılarının sadə səs çoxluğu ilə qəbul edilir.

12.8. Nəzarət Təftiş Komissiyasının iclası video konfrans formatı qaydasında keçirilə bilər. İclas bu qaydada keçirildikdə icra orqanı iclasın video konfrans formatı qaydasında keçiriləcəyi barədə bildirişi və iclasa qoşulmaq haqqında təlimatı nizamnamə ilə müəyyən olunmuş müddət ərzində Nəzarət Təftiş Komissiyasına göndərir.

12.9. İclas bitdikdən sonra üç iş günündən gec olmayaraq iclasın protokolu tərtib olunur. Protokol iclasda sədrlik edən şəxs və katib tərəfindən imzalanır və möhürlənir. Nəzarət Təftiş Komissiyası üzvünün tələbi ilə protokolun surəti ona təqdim edilməlidir.

12.10. İclasa sədrliyi Nəzarət Təftiş Komissiyasının sədri, katibliyi isə Birliyin işçisi edir. Nəzarət Təftiş Komissiyasının sədri iclasda iştirak etmədikdə, iclasın sədri iclasda iştirak edən Nəzarət Təftiş Komissiyasının üzvləri arasından seçilir.

12.11. Nəzarət Təftiş Komissiyası, səlahiyyətlərinə dair ona daxil olan müraciətləri 10 (on) iş günü ərzində cavablandırır.

## 13. İCRAÇI DİREKTOR

13.1. Birliyin fəaliyyətinə gündəlik rəhbərlik İcraçı direktor tərəfindən həyata keçirilir.
13.2. İcraçı direktor Direktorlar Şurası tərəfindən vəzifəyə təyin olunur.
13.3. İcraçı direktor Birliyin gündəlik fəaliyyətini təşkil və idarə edir, Direktorlar Şurasına və Direktorlar Şurasının Sədrinə hesabatlar verir. Direktorlar Şurası İcraçı Direktorun səlahiyyətlərini müəyyən edir. İcraçı Direktor Direktorlar Şurası tərəfindən ona verilən səlahiyyət dairəsinə daxil olmayan və ya Ümumi Yığıncaq və Direktorlar Şurasının müstəsna səlahiyyətinə aid olan məsələlər ilə bağlı qərar qəbul edə bilməz.
13.4. Direktorlar Şurası tərəfindən başqa cür müəyyən olunmayıbsa, İcraçı direktor aşağıdakı məsələləri həll edir:
- 13.4.1. Birliyin fəaliyyəti ilə bağlı bütün məsələlər haqqında Direktorlar Şurasını məlumatlandırır;
- 13.4.2. Birliyin iş prosesini idarə və təşkil edir;
- 13.4.3. Birliyin Azərbaycan Respublikasında və ya digər hər hansı bir ölkədə olan fəaliyyəti ilə bağlı olan məsələlər barəsində digər şəxslərlə əlaqə saxlayır;
- 13.4.4. Direktorlar Şurası təsdiq etdikdən sonra etibarnamə əsasında Birliyin adından müqavilələri, məktubları və ya istənilən digər sənədləri imzalayır, Direktorlar Şurası və ya bu nizamnamə ilə səlahiyyət verildikdə etibarnamə əsasında Birliyi üçüncü şəxslər qarşısında təmsil edir;
- 13.4.5. Ümumi Yığıncaq və Direktorlar Şurası tərəfindən baxılmalı və barəsində qərar qəbul edilməli olan məsələlər haqqında məlumatlandırıcı material və ya başqa sənədləri hazırlayır;
- 13.4.6. Ümumi Yığıncaq və Direktorlar Şurası tərəfindən qəbul edilmiş qərarların ona həvalə edildikdə vaxtında və lazımi qaydada icra olunmasını təmin edir;
- 13.4.7. Birliyin işçilərinin əmək funksiyasının dairəsini müəyyən edir, onlarla əmək müqavilələri bağlayır, şərtlərini dəyişdirir və qanunvericiliklə müəyyən edilmiş qaydada və əsaslarla əmək müqavilələrini ləğv edir;
- 13.4.8. Birliyin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür.

13.5. İcraçı direktor qanunvericiliklə və Birliyin nizamnaməsi ilə Ümumi Yığıncağın və Direktorlar Şurasının səlahiyyətlərinə aid edilməyən bütün səlahiyyətləri həyata keçirir.

## 14. BİRLİYİN YENİDƏN TƏŞKİL VƏ LƏĞV EDİLMƏSİ

14.1 Birliyin yenidən təşkili və ləğv edilməsi Ümumi Yığıncağın və ya müvafiq məhkəmənin qərarı ilə qanunvericilikdə müəyyən edilmiş qaydada həyata keçirilir.
14.2 Birlik ləğv edildikdə Birliyin borclarının ödənilməsindən sonra qalan əmlakı bu Nizamnamədə göstərilmiş məqsədlərə, bu mümkün olmadıqda isə dövlət büdcəsinə yönəldilir.

## 15. BİRLİYİN FƏALİYYƏTİNƏ XİTAM VERİLMƏSİ

15.1. Birliyin fəaliyyətinə xitam verilməsi haqqında qərara əsasən ləğvetmə komissiyası yaradılır. Bu andan Birliyin idarəçiliyi ilə əlaqədar bütün səlahiyyətlər ona keçir. Ləğvetmə komissiyası ləğvetmə balansını tərtib edir. Birliyin ləğvi zamanı büdcə ilə hesablaşmalardan və kreditorların tələbləri ödənildikdən sonra qalan əmlaka qanunvericiliklə müəyyən olunmuş qaydada sərəncam verilir.

15.2. Birliyin fəaliyyətinə onun yenidən təşkil edilməsi (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) və ya Birliyin ləğv edilməsi yolları ilə xitam verilir.

## 16. DİGƏR ŞƏRTLƏR

16.1. Bu Nizamnamədə nəzərdə tutulmayan məsələlər qanunvericiliklə tənzimlənir. Gələcəkdə bu Nizamnamənin müddəaları qanunvericiliklə ziddiyyət təşkil edərsə, qanunvericiliyin müddəaları tətbiq edilir.

16.2. Birliyin maliyyə ili qeydiyyata alındığı vaxtdan başlayır və həmin ilin 31 dekabrında başa çatır. Növbəti maliyyə illəri isə 1 yanvarda başlayır və dekabr ayının 31-dək olan dövrü əhatə edir.

16.3. Birlik qanunvericiliyə müvafiq olaraq mühasibat uçotu aparır.